# Naxçıvan Muxtar Respublikasının yetişdirməsi



**1924-cü ilin fevral ayında Naxçıvan Muxtar Respublikası təşkil olunduqdan sonra, elə həmin ilin oktyabrında Naxçıvanda dövlət tərəfindən ilk muzeyin yaradılması barədə qərar qəbul olunmuşdur. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 30 oktyabr 1924-cü il tarixli qərarı ilə Naxçıvan Tarix Etnoqrafiya Muzeyi (indiki Naxçıvan Dövlət Tarix Muzeyi) yaradılmış, həmçinin həmin qərara əsasən Naxçıvan MSSR Xalq Maarif Komissarlığına tapşırılmışdır ki, ayrı-ayrı idarə, müəssisə və təşkilatlarda, evlərdə və şəxslərdəki tarixi- etnoqrafik əhəmiyyətə malik olan əşyaların muzeydə mühafizə edilməsi üçün tədbirlər görsün.**

Naxçıvan Tarix Etnoqrafiya Muzeyinin yaradılması barədə Naxçıvanın yerli hökuməti tərəfindən müvafiq qərar qəbul olunmasına və maarif komissarlığına müvafiq tapşırıqlar verilməsinə baxmayaraq 1924-cü ilin oktyabrından 1925-ci ilin sonunadək muzey üçün yer ayrılmamış, eksponat toplanması işində ləngliyə yol verilmiş və kadr məsələləri həllini tapmamışdır. Bu kimi və digər amillər səbəbilə bir ildən də artıq bir müddət ərzində muzeyin formalaşdırılması mümkün olmamışdır.

Həmin dövrdə vəziyyəti araşdıran Naxçıvanın yerli hökuməti tarix -etnoqrafiya muzeyi yaradılanadək Naxçıvan şəhərində mövcud olan, şəhər sakini Balabəy Əlibəyovun evindəki şəxsi kolleksiyasından ibarət olan muzey əşyalarını dövlət mülkiyyətinə götürməklə muzeyin əməli surətdə yaradılması məsələsini müəyyən mənada həll etmişdir.

Bununla əlaqədar Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 6 yanvar 1926-cı il tarixli iclasında "Naxçıvan Tarix-Etnoqrafiya Muzeyini zənginləşdirmək haqqında" məsələyə baxılmış və həmin muzeyi zənginləşdirmək məqsədilə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun şəxsi kolleksiyasından ibarət olan muzey əşyalarının dövlət mülkiyyətinə götürülməsi və



həmin əşyaların götürülüb muzeyə təhvil verilməsi üçün V.Həsənzadə, M.Mirheydərzadə, X.Hacılarov, A.Əliyarov və Rəhmanovdan ibarət komissiyanın yaradılması barədə qərar qəbul olunmuşdur. B.Əlibəyovun özü isə həmin vaxtdan muzeyə müdir təyin edilmişdir.

Beləliklə, eksponatlarının əksəriyyətini B.Əlibəyovun şəxsi kolleksiyasının əşyalarından ibarət olan Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi 1926-cı ilin yanvar ayından fəaliyyət göstərməyə başlamışdır. Naxçıvan MSSR Xalq Maarif Komissarlığının tabeliyində olmasına baxmayaraq münasib yer ayrılmadığından muzey yenə də B.Əlibəyovun şəxsi evində fəaliyyət göstərirdi.

B.Əlibəyovu yaxından tanıyan Naxçıvan şəhər sakinlərinin bəzilərinin verdikləri məlumata görə onun evi şəhərin mərkəzində, indiki Atatürk (keçmiş Kirov) küçəsindəki və son illərədək kommunal və məişət müəssisələri kombinatının yerləşdiyi binanın yerində olmuşdur.

Həmin ev Naxçıvan üçün səciyyəvi olan müxtəlif ölçülü, dairəvi formalı, dəmir ornamentlərlə bəzədilmiş, darvazadan keçməklə həyətin ortasında idi. Muzeyin özü 2 otaqda və çox da böyük olmayan dəhlizdə yerləşdirilmişdi.

İlk dövrlərdə cəmi bir neçə yüz eksponatla fəaliyyətə başlayan Naxçıvan Tarix Etnoqrafiya Muzeyində qədim diyarın tarixinə, arxeologiyasına və etnoqrafiyasına dair materiallar var idi.

Onların arasında qızıldan hazırlanmış qədim bəzək əşyaları, qədim xalçalar, Şərq parçalarının nümunələri, qələmdanlar, saxsı və misdən hazırlanmış məişət əşyaları, qədim silahlar, Səfəvilər dövrünə aid sikkə kolleksiyası, XIX əsrin əvvəllərində tərtib olunmuş torpaq mülkiyyətinə dair sənədlər, tarixi memarlıq abidələrinin tikintisində istifadə olunan inşaat materiallarının nümunələri və digər maraq doğuran eksponatlar xüsusi yer tuturdu.

Muzeyin təşəkkülündə və inkişafında 1925-ci ilin may ayında Naxçıvanda yaradılan Tədqiq və Tətöbbö Cəmiyyətinin və onun ətrafında toplanan ziyalıların xüsusi rolu olmuşdur. Muzeyə eksponat toplanmasında və onun zənginləşdirilməsində Azərbaycanı Öyrənən Tədqiq və Tətöbbö Cəmiyyəti Naxçıvan Təşkilatının üzvlərindən M.Mirheydərzadə, Ağa Məhəmməd (Ərbab), L.Hüseynzadə, Z.Seyidov (Seyid Səbri), Ə.Mirzəyev, məşhur şair və dramaturq H.Cavidin böyük qardaşı M.Rəsizadə, Q.İmanov və digərləri fəal iştirak etmişlər.

Muzeyin 1926-1930-cu illərdəki fəaliyyəti əsasən eksponat toplanmasından ibarət olmuşdur. 1930-cu ildə muzey rəhbərliyində kadr dəyişiklikliyi olmuş, B.Əlibəyovdan sonra Naxçıvan Tədqiq və Tətöbbö Cəmiyyətində elmi katib vəzifəsində işləmiş Mirbağır Mirheydərzadə Naxçıvan MSSR Xalq Maarif Komissarlığının 27 avqust 1930-cu il tarixli əmri ilə muzeyə direktor təyin edilmişdir. Həmin dövrdə Naxçıvan Tarix Etnoqrafiya Muzeyinin adı da dəyişdirilərək Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyi adlandırılmışdır.

Ötən əsrin 20-30-cu illərində SSRİ-də sovetləşmənin həyatın bütün sahələrində tətbiqi, "marksist - bolşevik" ideyalarının geniş təbliği istiqamətində aparılan tədbirlər bütün sahələrdə olduğu kimi mədəni-maarif müəssisələrini də əhatə edirdi. Bu baxımdan 1930-cu il dekabr ayının 1-dən 5-dək Rusiyanın paytaxtı Moskva şəhərində keçirilmiş Ümumrusiya Muzeyləri qurultayının qərarları bütün ölkədə olduğu kimi Azərbaycanda, həmçinin Naxçıvanda da muzey quruculuğu işinə öz təsirini göstərmişdir.

Qurultay muzey kadrlarını muzey quruculuğu işini kökündən dəyişdirməyə səfərbər etməklə onların qarşısında "Marksist-bolşevik" muzeyinin yaradılması vəzifəsini qoymuşdur. Qurultaydan sonra bu sahədə həyata keçirilən tədbirlər Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyini də əhatə etmişdir.

Məhz həmin qurultayın qərarlarının təsiri altında Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1932-ci il 26 avqust tarixli iclasında "Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyi haqqında" məsələ müzakirə olunmuşdur. Müzakirə olunan məsələ barədə qəbul olunan qərarda Oktyabr İnqilabının 15-ci ildönümü gününədək Azərbaycan Tarixi Muzeyinin hazırladığı plan əsasında Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyinin tamamilə yenidən qurulub başa çatdırılması üçün Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən iki nəfər muzey işçisinin Naxçıvana ezam edilməsi, muzey üçün müvafiq bina ayrılması, dövlət və təsərrüfat orqanlarının sərəncamında olan və tarixi əhəmiyyət kəsb edən əşyaların muzeyə verilmə-

si nəzərdə tutulmuş, həmçinin Naxçıvan MSSR Xalq Maarif Komissarlığına təklif edilmişdir ki, Naxçıvan Vilayət Həmkarlar İttifaqları Şurası ilə birgə şagirdlərin, əsgərlərin, kolxozçuların, həmkarlar ittifaqı üzvlərinin mütəmadi olaraq muzeyə ekskursiyalarının təşkilinə dair tədbirlər planı hazırlasınlar.

Həmin qərardan sonra Naxçıvan şəhərinin indiki Azadlıq (keçmiş Lenin) prospektindəki 39 saylı yaşayış binasının yanında yerdən bir mərtəbə şəklində inşa olunan binada muzeyə yer ayrılmışdır. Həmin binada muzeyin sahəsi 2 otaqdan və çox da böyük olmayan giriş qapısından keçməklə dəhlizdən ibarət olmuşdur.

Beləliklə, muxtar respublika partiya, sovet, təsərrüfat orqanlarının və ictimai təşkilatlarının yaxından iştirakı ilə 1932-ci ilin oktyabrında Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyi həmin binada yenidən qurularaq istifadəyə verilmişdir. 1932-1940-cı illərdə muzeyin fəaliyyət dairəsi genişlənmiş və ekspozisiyası ilbəil zənginləşdirilmişdir. Yarandığı ilk illərdə 250-yə qədər eksponata malik olan muzeyin eksponatları artaraq 1932-ci ildə 2520, 1940-cı ildə isə 4880 ədəd olmuşdur. Təkcə 1940-cı ildə muzeyə 6 mindən çox tamaşaçı gəlmişdir.

1941-1945-ci illər müharibəsinin başlanması ölkənin hər yerində işləri iflic vəziyyətinə saldığı kimi muzeylərin də fəaliyyətində durğunluq yaranmış, müharibə qanunları və qaydaları üstünlük təşkil etmişdir. Həmin dövrdə onsuz da sayca çox olmayan muzey əməkdaşları eksponatları qoruyub saxlamaqla və yeri gəldikcə müharibənin gedişi, cəbhədəki vəziyyət barədə əhali arasında məlumatlandırıcı söhbətlər aparmaqla kifayətlənmişlər.

1945-ci ilin mart ayında Azərbaycan SSR Elmlər Akademiyası təsis edilərkən Azərbaycan Tarixi Muzeyi akademiyanın ictimai elmlər bölməsinin tərkibinə daxil edildikdən sonra respublikadakı digər muzeylər kimi Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyi də Xalq Maarif Komissarlığının tabeliyindən çıxarılaraq Azərbaycan SSR elmlər akademiyasının tərkibinə daxil edilmişdir. Azərbaycan Tarixi Muzeyinin rəhbərliyi altında muzey şəbəkəsinin Elmlər Akademiyasının tərkibində birləşdirilməsi respublikada muzey quruculuğu işinin gələcək inkişafı yolunda mühüm hadisə idi.

Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyi Elmlər Akademiyasının tərkibinə keçirildikdən sonra son illərədək Naxçıvan şəhərində indiki Ana dili abidəsinin yerində yerləşən M.T.Sidqi adına 4 nömrəli səkkizillik məktəbinin iki mərtəbəli hissəsinin ikinci mərtəbəsinə köçürülmüşdür.

1930-1945-ci illərdə Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyinə rəhbərlik etmiş Mirbağır Mirheydərzadə 1945-ci ilin avqust ayından muzey direktorluğundan ayrılmış, elə həmin vaxtdan da onu Abdulla Axundov əvəz etmişdir.

Araşdırmalardan aydın olur ki, müharibədən sonrakı 1945-1955-ci illərdə muzeyin fəaliyyətində ciddi irəliləyişlər olmamış, əksinə muzeydə kadr axıcılığı çox olmuşdur. Muzey direktorunun tez-tez dəyişdirilməsi öz mənfi təsirini göstərmişdir. Muzeyin direktoru Abdulla Axundov 1949-cu ilin yanvarında dəyişdirilmişdir.

Təkcə bir faktı göstərmək kifayətdir ki, A.Axundovdan sonra 1949-cu ilin yanvar ayından 1950-ci ilin sentyabr ayınadək Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyinə səkkiz direktor təyin edilmiş və az bir vaxtdan sonra yenisi ilə əvəz edilmişdir. Səkkiz direktordan yalnız biri 6 ay, biri 5 ay, qalanları isə 1-3 ay müddətində muzeyə rəhbərlik etmişdir.

Təhlillərdən aydın olur ki, 1945-ci ildən sonra muzey direktorlarının tez-tez dəyişdirilməsi, muzeyin əldən-ələ keçməsi, lazımi qeydiyyat və sənədləşmə işlərinin aparılmaması özünün mənfi təsirini göstərmiş və nəticədə muzey eksponatlarının sayının azalmasına səbəb olmuşdur. 1950-ci ilin sentyabrında Naxçıvan MSSR Xalq Maarif Komissarlığının əmri ilə Validə Vəzirova muzeyə direktor təyin edilmiş və o, bu vəzifədə 1956-cı ilin mart ayınadək işləmişdir.

Naxçıvan MSSR Mədəniyyət Nazirliyi təsis edildikdən sonra muzey Naxçıvan MSSR Maarif Nazirliyinin tərkibindən çıxarılaraq mədəniyyət nazirliyinin tabeliyinə verilmişdir. Həmin vaxt Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə Əbülqasım Sultanov muzeyə yeni direktor təyin edilmişdir.

Naxçıvan MSSR Maarif Nazirliyinin 1 mart 1956-cı il tarixli 97 nömrəli və Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin 1 mart 1956-cı il tarixli 18 nömrəli əmrlərinə əsasən birgə komissiya yaradılmışdır. Muzeyin sabiq direktoru V.Vəzirovanın və yeni direktor Ə.Sultanovun da tərkibində olduqları həmin komissiya üzvlərinin iştirakı ilə V.Vəzirovadan muzeyin eksponatları təhvil alınıb Ə.Sultanova təhvil verilmişdir. Həmin vaxt muzey yeni binaya köçürülərək hazırda Naxçıvan şəhəri Heydər Əliyev prospektindəki Türkiyə Cumhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunun yerində əvvəllər mövcud olmuş ikimərtəbəli binada yerləşdirilmişdir.

Bir müddət keçdikdən sonra Naxçıvan şəhərinin mərkəzində, Nizami küçəsi 31 ünvanındakı bina Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyinə verilmişdir. Həmin binada muzeyin ekspozisiyası yenidən qurulmuş və müəyyən bir vaxtdan sonra öz qapılarını tamaşaçıların üzünə açmışdır.

Ötən əsrin 60-cı illərində muzey əsasən eksponat toplanması işi ilə məşğul olmuş, 1967-ci ilədək yeganə muzey kimi muxtar respublika əhalisinə muzey xidməti işini həyata keçirmişdir. 60-cı illərin sonlarından etibarən Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyinin adı dəyişdirilərək Naxçıvan Dövlət Tarix Muzeyi adlandırılmış və indiyədək həmin adı şərəflə daşımaqdadır.

1924-cü ildə yaradılan indiki Naxçıvan Dövlət Tarix Muzeyinin təşəkkül və inkişaf yolu ötən əsrdə 20-30-cu illərin repressiya sınaqlarından keçmiş, İkinci Dünya Müharibəsinin vurduğu yaralarla üzləşmiş və həmin müharibənin acı və ağır nəticələrinin aradan qaldırılması illərini yaşamışdır. Ona görə də araşdırmalar göstərir ki, bütün Azərbaycan muzeyləri kimi Naxçıvan Dövlət Tarix Muzeyi də özünün inkişaf yolunu əsasən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbər olduğu ötən əsrin 70-80-ci illərində keçmiş və bu inkişaf günümüzdə də davam etməkdədir.

Məhz ulu öndər H.Əliyevin təşəbbüsü ilə 1970-ci ilin yanvar ayında "Respublikada muzey işinin təkmilləşdirilməsi haqqında" və 1980-ci ilin yanvarında "Respublikada muzeylərin şəbəkəsinin genişləndirilməsi haqqında" qəbul edilən qərarlar bütün muzeylər kimi Naxçıvan Dövlət Tarix Muzeyinin də həyatında mühüm rol oynamış və onun inkişafına əhəmiyyətli təsir etmişdir. Məhz həmin qərarların təsiri nəticəsində 1980-ci illərin əvvəllərində muzeyin ekspozisiyası geniş mövzulu plan əsasında yenidən qurulmuş, muxtar respublikada yeni yaranan müxtəlif profilli muzeylərin fondlarının təşkilində və ekspozisiyaların qurulmasında Naxçıvan Dövlət Tarix Muzeyinin birbaşa iştirakına şərait yaratmışdır. 1982-ci ilin əvvəlində muzeyin direktoru Ə.Sultanov vəzifəsindən azad edilmiş, həmin ilin aprel ayından oktyabr ayınadək muzeyin böyük elmi işçisi İdris Səlimov müvəqqəti olaraq direktor vəzifəsini icra etmişdir. 1982-ci il oktyabr ayının 19-da bundan əvvəl C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyinin direktoru işləmiş İsfəndiyar Əsədullayev Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru təyin olunmuşdur və o, bu vəzifədə 1998-ci ilin iyun ayınadək işləmişdir.

Mədəni irsin qorunması və təbliği sahəsində Naxçıvan Dövlət Tarix Muzeyinin çoxillik fəaliyyəti layiqincə qiymətləndirilmişdir. Ötən əsrin 70-80-ci illərində muzey 3 dəfə ümumittifaq yarışın qalibi olmuş, 2 dəfə isə muzeylərə ümumittifaq baxışın yekunlarına görə mükafata layiq görülmüşdür. 1983-cü ilin iyul ayında isə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin əmri ilə Naxçıvan Dövlət Tarix Muzeyi muxtar respublikadakı tarix profilli muzeylər üzrə baza müəssisəsi hesab edilmişdir.

Gənc nəslin milli-mənəvi tərbiyəsində muzeylərin rolunu layiqincə dəyərləndirərək yeni-yeni muzeylərin yaradılmasının və onların maddi-texniki bazasının möhkəmləndirilməsinin təşəbbüskarı olan ulu öndər H.Əliyev demişdir: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır". Vaxtilə deyilmiş bu fikirlər bütün dövrlərdə öz aktuallığını qoruyub saxlamış və bu gün də aktualdır.

Yeni-yeni muzeylər yaratmaq, mövcud muzeylərin maddi-texniki bazasının möhkəmləndirilməsinə qayğı göstərmək sayəsində, əsası ulu öndər tərəfindən qoyulan nəcib ənənələrin layiqli davamçıları tərəfindən müstəqillik dövrümüzün son on ilində Naxçıvan Dövlət Tarix Muzeyinə də lazımi dövlət qayğısı göstərilmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyi 2000-ci ilə qədər təxminən yarım əsrə yaxın bir dövrdə uyğunlaşdırılmış, bir əsrdən çox yaşı olan və qə-

zalı vəziyyətə düşmüş bir binada yerləşirdi. Muzeyin ümumi vəziyyəti ilə yaxından tanış olan Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədrinin qayğısı və köməkliyi ilə Naxçıvan şəhərinin mərkəzi İstiqlal küçəsində tarix muzeyinə yeni bina ayrılmış, əsaslı təmir-tikinti və quraşdırma işləri aparıldıqdan sonra yeni binaya köçürülmüşdür. Həmin binada muzeyin ekspozisiyası yenidən qurularaq 2000-ci il noyabr ayının 4-də tamaşaçıların ixtiyarına verilmişdir.

Yeni binada Naxçıvan Dövlət Tarix Muzeyinin fəaliyyətində yeni dövr başlanmışdır. Ötən dövr ərzində muzey fondunun daha da zənginləşdirilməsi, muzey işinin forma və üsullarının təkmilləşdirilməsi, əhaliyə göstərilən muzey xidmətinin səviyyəsinin yüksəldilməsi, kadrlarla aparılan işin yaxşılaşdırılması, onların elmi- tədqiqat işlərinə cəlb olunması, muxtar respublikadakı tarix profilli muzeylərə metodiki köməkliyin göstərilməsi istiqamətində müəyyən tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il mart ayının 6-da imzaladığı "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" sərəncam muzeylərə dövlət qayğısının bariz nümunəsinə çevrilmişdir.

Aparılmış əsaslı təmir-tikinti və quraşdırma işlərindən sonra həmin sərəncamın tələblərinə uyğun olaraq ekspozisiya tamamilə yenidən qurulmuş, eksponatların həm fiziki, həm də bioloji cəhətdən etibarlı mühafizəsi üçün muzeyin ekspozisiyası yeni vitrinlər və saxlanc qurğuları ilə təchiz edilmişdir.

2007-ci il may ayının 18-də təmirdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri möhtərəm Vasif Talıbovun bilavasitə iştirakı ilə muzeyin açılışı olmuşdur.

Əvvəlki dövrlərdə olduğu kimi müstəqillik illərində muzey mədəni irsin toplanması, qorunması, öyrənilməsi və təbliği sayəsində fəaliyyətini davam etdirmişdir. Yaradıldığı ilk vaxtlardan cəmi bir neçə yüz eksponatla fəaliyyətə başlayan muzeyin indi fond ekspozisiyasında 10 şöbəni əhatə edən 46 mindən çox eksponat mühafizə olunmaqla həm də geniş şəkildə təbliğ olunur.

Muzeydə eksponatların sayı 1991-ci ildə 35382 ədəd olduğu halda 2000-ci ildə artaraq 38631 ədəd olmuşdur. 2001-2009-cu illərdə muzeydə eksponat artımı 7500-dən çox olmuşdur. Muzeydə əhaliyə göstərilən xidmətin keyfiyyəti ilbəil yaxşılaşdığı kimi muzeyə gələn tamaşaçıların da sayı ildən- ilə artmaqdadır.

Son illərdə muzeydə aparılan elmi-tədqiqat və maarifçilik işlərinə diqqət artırılmışdır. Muzey əməkdaşlarının onlarla elmi məqalələri yerli mətbuatda və respublikada nəşr olunan qəzet və jurnallarda, elmi məcmuələrdə və toplularda dərc olunmuşdur. 2000-2009-cu illərdə muzey işinin və muzey sərvətlərinin təbliği ilə əlaqədar əməkdaşların yüzdən artıq məqaləsi çap olunmuş, "Naxçıvan Dövlət Tarix Muzeyi" bələdçi-məlumat kitabçası tərtib edilərək nəşr etdirilmişdir.

Vaxtilə ümummilli ilder Heydər Əliyev tərəfindən, ondan sonra isə ulu öndərimizin layiqli davamçıları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən muzeylərimizə göstərilən qayğı tariximizin canlı şahidləri olan milli-mədəni sərvətlərimizin qorunub saxlanmasına, onların geniş şəkildə təbliğinə və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 fevral 2009-cu il tarixdə imzaladığı sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi geniş şəkildə qeyd olunmuşdur. Ötən 85 ildə Naxçıvan Muxtar Respublikasının yetişdirməsi olan Naxçıvan Dövlət Tarix Muzeyi Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarının tarixinin şahidi olan maddi mədəniyyət nümunələrinin qorunub saxlandığı məbədgaha çevrilmişdir.**

● **Nizami RƏHİMOV,**
***Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi***